# Bakıda III Bakı Beynəlxalq Kitab Sərgi yarmarkası açıldı

Sentyabrın 23-də paytaxtımız növbəti dəfə beynəlxalq kitab bayramına ev sahibliyi etdi. Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə keçirilən III Bakı Beynəlxalq Kitab Sərgi yarmarkası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyinə həsr olunmuşdur. Yarmarkada 25 ölkədən 120-yə yaxın nəşriyyat iştirak edir. Dövlət Statistika Komitəsi də Sərgi-Yarmarkaya qatılmış və komitə tərəfindən iqtisadiyyatın ayrı-ayrı sahələrini əks etdirən statistik məcmuələr nümayiş etdirilmişdir.

Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasının təşkilində əsas məqsəd gənc nəslin kitaba olan marağını daha da artırmaq, Azərbaycan oxucusunun dünyanın aparıcı nəşriyyatlarının nəşrləri ilə tanışlığını təmin etməkdir. Beynəlxalq Kitab Sərgi-Yarmarkası ötən illərdən fərqli olaraq, bu dəfə açıq havada keçirilir.

Qeyd edək ki, III Bakı Beynəlxalq kitab sərgi-yarmarkası işini sentyabrın 25-dək davam etdirəcək.

